

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 1 (24.138)

*6 yanvar 2023-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Ölkə əhalisinin sosial müdafiəsinin gücləndirilməsi aparılan sosial-iqtisadi siyasətin mühüm prioritetlərindən biridir. Son illərdə bu istiqamətdə ciddi irəliləyişlərə nail olunmuş, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sosial ödənişlərin, əməkhaqlarının artırılması istiqamətində ardıcıl addımlar atılmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, əhalinin rifahının qorunması sahəsində tədbirlərin davam etdirilməsi məqsədilə **qərara alıram:**

1. Minimum aylıq əməkhaqqının məbləği 2023-cü il yanvarın 1-dən 345 manat müəyyən edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. 10 gün müddətində:

2.1.1. əmək pensiyasının minimum məbləğinin 280 manata çatdırılmasına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.2. sosial müavinətlərin və təqaüdlərin məbləğlərinin artırılması ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktları ilə müəyyən olunmuş dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşlarının məbləğlərinin bir ay müddətində bu Sərəncamın 1-ci hissəsinə uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. "Minimum aylıq əməkhaqqının məbləğinin artırılması və "Minimum aylıq əməkhaqqının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli 1265 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 17 dekabr tarixli 3051 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1464) 1-ci hissəsi ləğv edilsin.

4. Bu Sərəncamın 1-ci və 3-cü hissələri 2023-cü il yanvarın 1-dən tətbiq edilir.

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 5 yanvar 2023-cü il*

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciəti



– Əziz həmvətənlər.

Bir il əvvəl Yeni il bayramı münasibətilə Azərbaycan xalqına müraciət edərkən demişdim ki, əminəm, 2022-ci il də ölkəmiz üçün uğurlu olacaq. Belə də oldu. Qarşımızda duran bütün vəzifələr icra edildi, Azərbaycan daha da gücləndi.

İki il əvvəl döyüş meydanında qazandığımız tarixi Qələbəmizi siyasi müstəvidə daha da möhkəmləndirdik. Bu ilin oktyabr ayında Praqa və Soçi görüşlərində Ermənistan ölkəmizin ərazi bütövlüyünü və suverenliyini rəsmən tanıdı. Hesab edirəm ki, bundan sonra Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin imzalanması üçün bütün şərtlər təmin edildi və Azərbaycan tərəfindən təklif olunmuş məlum beş prinsip əsasında sülh müqaviləsi imzalana bilər.

Bu il biz hərbi gücümüzü daha da artırmışıq, bu sahəyə daim böyük diqqət göstərilir. Azərbaycan həm İkinci Qarabağ müharibəsi dövründə öz hərbi gücünü göstərmişdir, eyni zamanda müharibədən keçən iki il ərzində biz aparılan islahatlar nəticəsində, yeni silahlı birləşmələrin yaradılması nəticəsində, silahlar və müasir texnika ilə ordumuzu təchiz etməyimiz nəticəsində daha da böyük hərbi potensiala malik olduq.

Bu il bir neçə hərbi əməliyyat keçirildi və bu əməliyyatlar döyüş qabiliyyətimizin yüksək səviyyədə olmasını bir daha təsdiqlədi. Fərrux əməliyyatı, "Qisas" əməliyyatı, eyni zamanda sentyabr ayında Azərbaycan və Ermənistan sərhədi istiqamətində gedən toqquşmalar bizim növbəti parlaq qələbəmizlə nəticələndi. Sərhəd toqquşmaları nəticəsində Azərbaycan bir çox əlverişli strateji yüksəkliklərdə öz mövqelərini daha da möhkəmləndirə bilmişdir.

Avqustun 26-da – nəzərdə tutulmuş vaxtdan xeyli əvvəl biz Laçın şəhərini də azad etdik və eyni zamanda Laçın rayonunun Zabux və Sus kəndlərinə də qayıtdıq. Bu da böyük nailiyyətdir. Artıq Laçın şəhərində çox genişmiqyaslı quruculuq-bərpa işləri aparılır. Əminəm ki, biz 2023-cü ildə laçınlıları Laçına qaytaracağıq, ilk keçmiş köçkünlər öz doğma torpağına qayıdacaqlar.

Eyni zamanda bu il Ağalı kəndində həyat artıq bərpa edilib. Birinci layihə icra edilmişdir və zəngilanlılar öz doğma torpağına qayıtmışlar. Bu, tarixi hadisədir. Çünki müharibədən iki il keçmədən – cəmi il yarımdan sonra biz artıq birinci keçmiş köçkünləri öz doğma torpaqlarına qaytarmışıq, onlar üçün gözəl şərait yaratmışıq. Bu, bir daha onu göstərir ki, dövlətimiz güclüdür və iradəmiz yerindədir. Eyni zamanda bu, xalqımızın böyüklüyünü göstərir. Onu göstərir ki, bizim vətəndaşlarımız öz dədə-baba torpaqlarına bağlıdır, necə deyərlər, torpaq çəkir. Hətta heç vaxt o yerləri görməyən gənclər, uşaqlar, məktəblilər böyük həvəslə Ağalıya qayıdıblar və bu, bir daha xalqımızın böyüklüyünü göstərir. Onu göstərir ki, məcburi köçkünlər qayıdış gününü səbirsizliklə gözləyirlər.

Böyük Qayıdış Proqramı uğurla icra edilir. Bir neçə şəhərdə artıq inşaat işləri geniş vüsət almışdır. İlk növbədə, Şuşa, eyni zamanda Ağdam, Füzuli, Zəngilan, Laçın şəhərlərində geniş quruculuq işləri gedir, xəstəxanalar, məktəblər, yaşayış binaları inşa edilir. Bununla bərabər, 10-dan çox kəndin Baş planı təsdiqləndi və bir neçə kəndin təməlini mən şəxsən qoymuşam. Bütövlükdə, deməliyəm ki, azad edilmiş bütün şəhərlərimizin və qəsəbələrimizin Baş planları hazırlandı, təsdiqləndi. Bütün işlər Baş planlar əsasında gedəcək. Eyni zamanda Böyük Qayıdış Proqramında bizim bütün planlarımız öz əksini tapıb və əminəm ki, yüz minlərlə keçmiş köçkün yaxın gələcəkdə öz doğma torpağına qayıdacaq.

Əlbəttə ki, bununla paralel olaraq minatəmizləmə işləri aparılır. Əfsuslar olsun ki, Ermənistan bizə dəqiq mina xəritələrini verməyib, 300-ə yaxın azərbaycanlı müharibədən sonrakı dövrdə mina faciəsi nəticəsində ya həlak olmuş, ya da ağır yaralanmışdır.

Bu il biz Zəngilan Beynəlxalq Hava Limanının açılışını etdik. Bu, azad edilmiş torpaqlarda ikinci hava limanıdır. Üçüncü hava limanı isə maksimum iki ildən sonra istifadəyə veriləcək.

Zəngəzur dəhlizinin açılması ilə əlaqədar genişmiqyaslı işlər aparılır, dəmir yolları, avtomobil yolları çəkilir. Zəngəzur dəhlizinin açılması mütləq olmalıdır, Ermənistan bunu istəsə də, istəməsə də. Biz ortaya güclü iradə qoymuşuq, bütün işlər plan üzrə gedir. Bizim tələbimiz əsaslıdır və ədalətlidir. Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə bizim bağlantımız olmalıdır və olacaqdır.

Azad edilmiş ərazilərdə bizim tarixi binalarımız, o cümlədən məscidlərimiz əsaslı şəkildə bərpa edilir və yenidən inşa olunur. Mən bu rəqəmi səsləndirmişdim, ermənilər işğal dövründə 67 məsciddən 65-ni tamamilə yerləyeksan etmişlər. Onların bərpası, yenidən qurulması faktiki olaraq artıq başlamışdır və təmirə ehtiyacı olan məscidlər də təmir edilir. Onu da bildirməliyəm, bizim dini abidələrimizin inşası və təmiri ilə bağlı əsas rolu Heydər Əliyev Fondu oynayır. Faktiki olaraq bütün məscidlər Heydər Əliyev Fondunun xətti ilə yenidən inşa edilir.

Əlbəttə ki, bütün bu nailiyyətlərə çatmaq üçün bizim güclü iqtisadiyyatımız olmalıdır və iqtisadi müstəqillik çoxdan təmin edilib. Bu gün Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, heç kimdən iqtisadi və siyasi cəhətdən asılı deyil. Əgər bu ilin iqtisadi göstəricilərinə nəzər salsaq, görərik ki, postpandemiya dövrü üçün nəticələr qənaətbəxşdir. İqtisadiyyat, təxminən, 5 faiz artıb, qeyri-neft sektorunda 9 faizdən çox artıb. Bununla bərabər, bizim ümumi daxili məhsulumuz bu il rekord həddə – 130 milyard manata çatıb. Bu, tarixi nailiyyətdir. Bununla paralel olaraq bizim xarici dövlət borcumuz xeyli azalıb. Bu vəzifəni bir neçə il bundan qabaq mən hökumət qarşısında qoymuşdum ki, bizim xarici borcumuz ümumi daxili məhsulumuzun 10 faizinin altında olmalıdır. Keçən il 17 faiz idi, bu ilin son nəticələrinə görə 9,5 faizdir. Müqayisə üçün deyə bilərəm ki, bəzi inkişaf etmiş ölkələrdə xarici borc ümumi daxili məhsulun 100, 120, hətta 150 faizini təşkil edir. Yəni biz tamamilə beynəlxalq maliyyə institutlarından asılı deyilik.

Əlbəttə, biz ümid edirik ki, beynəlxalq donor təşkilatları öz diqqətini bizə də istiqamətləndirəcəklər. Çünki bu dərəcədə böyük dağıntılar tarixdə olmayıb. Yəni Azərbaycan böyük ekoloji fəlakətlə, urbisidlə üzləşib. Ancaq əfsuslar olsun ki, beynəlxalq donor təşkilatları bizə bir manat, ya bir dollar kömək etməyiblər. Nəinki donor təşkilatları, heç kim bizə kömək etmir, bütün bərpa işlərini öz hesabımıza aparırıq və aparacağıq.

Bu il energetika sahəsində çox əlamətdar hadisələr baş verib. İlin ortasında Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində strateji tərəfdaşlığa dair memorandum imzalanmışdır. Artıq bu memorandum icra edilir, Azərbaycan dünya bazarlarına öz təbii qazının ixracatını artırır. Bu ilin sonunda – dekabrın 17-də isə yeni böyük meqalayihəyə start verildi. Qara dənizin dibi ilə elektrik kabelinin çəkilişi imkan verəcək ki, Azərbaycan bu sahədə də öz rolunu daha geniş miqyasda oynasın. Çünki bu elektrik enerjisinin əsas təchizatçısı Azərbaycan olacaq və bu, yaşıl enerji olacaqdır. Mən artıq bir neçə dəfə demişdim ki, Qarabağ və Şərqi Zəngəzur yaşıl enerji zonası olmalıdır. Artıq biz buna nail oluruq və olacağıq. Eyni zamanda Azərbaycanın çox geniş bərpa olunan enerji mənbələri həm ölkəmiz üçün, həm də dünya üçün böyük əhəmiyyət kəsb edir. Mən bu rəqəmləri bu yaxınlarda səsləndirmişdim, təsdiq edilmiş bərpa olunan enerji mənbələrinin potensialı 184 min meqavatdır. Bunun 157 mini Xəzər dənizinin Azərbaycan sektorunda mövcuddur. Yəni bu, ölkəmizi əvəzolunmaz tərəfdaşa, enerji sahəsində əvəzolunmaz tərəfdaşa çevirəcəkdir.

Biz ənənəvi olaraq regional inkişaf proqramı ilə ciddi məşğul olmuşuq. Mənim regionlara bu il 30 səfərim olubdur, o cümlədən 21 səfər azad edilmiş torpaqlaradır.

Mən bu ili "Şuşa İli" elan etmişdim. Şuşanın 270 illiyini biz çox geniş və böyük təntənə ilə qeyd etdik. Gələn il isə "Heydər Əliyev İli" elan edilib. Gələn il biz Ulu Öndərin 100 illik yubileyini qeyd edəcəyik. Heydər Əliyevin xatirəsinə ən böyük hörmətimiz onun yoluna sədaqətimizdir. Biz bu yolla gedirik və bu gün Azərbaycan reallıqları, uğurlar, qələbələr, bax bu yolun təməlində dayanıb.

Bu gün Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Dünyada yaşayan bütün soydaşlarımızı ənənəvi olaraq səmimiyyətlə salamlayır, onlara uğurlar arzulayıram. Onlar bilirlər ki, güclü müstəqil Azərbaycan dövləti var və onların arxasında dayanır. Əminəm, bu gün xaricdə yaşayan azərbaycanlılar haqlı olaraq fəxr edirlər ki, müstəqil Azərbaycanın, müzəffər Azərbaycanın övladlarıdır.

Bu il Şuşada keçirilmiş Dünya Azərbaycanlılarının Qurultayı tarixi hadisə idi. Bu qurultayın məhz Şuşada keçirilməsi çox böyük rəmzi məna daşıyırdı. Necə ki, Azərbaycan cəmiyyəti, Azərbaycan vətəndaşları bir yumruq kimi birləşib, əminəm, dünya azərbaycanlıları, onların mütləq əksəriyyəti də eyni yanaşma göstərəcəklər. Hər halda güclü Azərbaycan dövləti onlar üçün böyük dayaqdır.

Əziz həmvətənlər.

Mən sizi Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə ürəkdən təbrik edir, cansağlığı, uğurlar arzulayıram.

Bayramınız mübarək olsun!

**AZƏRTAC**

# Gənc nəslin müasir dövrün inkişaf trendlərinə uyğun formalaşmasına diqqət və qayğı

## *Azərbaycan Prezidenti və birinci xanım Bakıda Uşaq-Gənclər İnkişaf Mərkəzində əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olublar*





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda Uşaq-Gənclər İnkişaf Mərkəzində əsaslı təmir və bərpadan sonra yaradılan şəraitlə tanış olublar.

Elm və təhsil naziri Emin Əmrullayev Mərkəzdə yaradılan şərait barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Bildirildi ki, 1937-ci ildə Bakıda S.Vəlixanlı küçəsi 3 ünvanında yerləşən binada Mərkəzi Pionerlər Sarayı yaradılıb. Bundan məqsəd uşaqların asudə vaxtını səmərəli və məqsədəuyğun təşkil etmək, onların bilik, bacarıq və vərdişlərini inkişaf etdirmək, məktəbdənkənar tərbiyə işinin təşkilində uşaqlara praktiki və metodiki kömək göstərməkdən ibarət olub.

İlk vaxtlar sarayda texniki yaradıcılıq, bədii tərbiyə, təsviri sənət, fiziki tərbiyə üzrə dərnəklər fəaliyyət göstərib. 1946-cı ildə sarayda xoreoqrafiya, xalq çalğı alətləri, qarmon ifaçıları və xor kollektivlərindən ibarət mahnı və rəqs ansamblı yaradılıb. Bəstəkar Qəmbər Hüseynli ansambl üçün "Cücələrim" mahnısını yazıb. Məhz bu səbəbdən 1959-cu ildə kollektiv "Cücələrim" adlandırılıb.

Təqribən 15 il sonra – 1961-ci ilin aprelində dünyanın ilk kosmonavtının şərəfinə saraya Yuri Qaqarinin adı verilib. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 dekabr 1991-ci il 427 saylı Qərarına əsasən Y.Qaqarin adına pioner və məktəblilər sarayının adı dəyişdirilmiş, Tofiq İsmayılov adına Respublika Uşaq-Gənclər Yaradıcılıq Sarayı adlandırılmışdır.



Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 1 noyabr tarixli Qərarına uyğun olaraq Təhsil Nazirliyi Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzi, Respublika Gənc Turistlər və Diyarşünaslıq Mərkəzi və Tofiq İsmayılov adına Bakı Şəhəri Uşaq-Gənclər Yaradıcılıq Sarayı birləşdirilərək onların bazasında Uşaq-Gənclər İnkişaf Mərkəzi yaradılıb, ötən il isə ona publik hüquqi şəxs statusu verilib.

Fəaliyyəti dövründə minlərlə istedadlı gəncin müxtəlif ixtisaslar üzrə formalaşmasında mühüm xidmətləri olan Mərkəz 2022-ci ildə əsaslı təmir edilib. İstifadəyə verildikdən sonra Mərkəzdə rəqs, musiqi alətləri, vokal, sağlam həyat tərzi, teatr, rəssamlıq, xarici dillər, intellektual inkişaf, elm və texnologiya, ekoklub, psixologiya, kulinariya və turizm istiqamətləri üzrə 44 dərnək təşkil olunub. Həmin dərnəklərdə 1500 nəfərədək şagirdin məşğul olması nəzərdə tutulub. Həmçinin binada 20 inzibati, 20 texniki və 65 pedaqoji işçi çalışacaq.

Qeyd edək ki, bu Mərkəzin binasının əsaslı təmiri və bərpası Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın gənc nəslin müasir dövrün inkişaf trendlərinə uyğun formalaşmasına göstərdikləri diqqət və qayğının daha bir nümunəsidir.

**AZƏRTAC**

# "STEAM Azərbaycan" layihəsi uğurla davam etdirilir

## *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda "STEAM İnnovasiya Mərkəzi"nin açılışında iştirak ediblər*





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda "STEAM İnnovasiya Mərkəzi"nin açılışında iştirak ediblər.

Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına və birinci xanıma Mərkəzdə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, "STEAM İnnovasiya Mərkəzi"nin dördmərtəbəli yeni binasında aviasiya məkanı, klassik Nyuton, uşaqlar üçün Nyuton, konfrans, oyun, konstruksiya, "Heureka Classics" otaqları, robotların hazırlanması laboratoriyası, "3D hologram", VR zonaları mövcuddur.

Qeyd edək ki, müasir dünya reallıqları gələcəkdə yüksəkixtisaslı mütəxəssislərin yetişməsi üçün təhsil qarşısında bir çox mühüm vəzifələr qoyur. Həyatın bütün sahələrində işlərin yeni dünya düzəninə uyğun qurulması üçün təhsil ocaqlarında öyrənmək maraqlı olmalı, bilik təcrübədə tətbiq edilməli, təlim maraqlı formada keçilməlidir. Yəni bu günün məzunları müasir tələblərə cavab verən, əmək bazarında özünü doğruldan şəxslər olmalıdır. Elə bu məqsədlə də Elm və Təhsil Nazirliyi 2019-2020-ci tədris ilindən başlayaraq Heydər Əliyev Fondunun dəstəyi ilə "STEAM Azərbaycan" layihəsinə start verib. STEAM – elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyatın birləşməsi nəticəsində yeni ideyaların reallaşdırılması, cəmiyyətdə müxtəlif problemlərin həllinə kömək edə biləcək təhsil yanaşmasıdır. Hazırda ölkəmizin bir sıra məktəblərində STEAM otaqları və mərkəzləri fəaliyyət göstərir.




Diqqətə çatdırıldı ki, "STEAM Azərbaycan" layihəsinin davamı olan "STEAM İnnovasiya Mərkəzi"nin fəaliyyəti orta məktəblərdə eyniadlı mövcud mərkəzlərin tədris proqramına görə fərqlənir. Bu Mərkəzə müraciət edən müxtəlif yaş kateqoriyasından olan məktəblilər və tələbələr XXI əsr bacarıqlarını – kreativliyi, əməkdaşlığın inkişaf etdirilməsini, müxtəlif proqramlaşdırma dillərini tətbiq etməklə müasir İKT avadanlıqlarından istifadə qabiliyyətlərini yüksəldəcəklər. Uşaqlar real həyat problemləri ilə qarşılaşdıqda, STEAM metodu vasitəsilə onun rahatlıqla ən uyğun həlli yollarını tapmağa çalışacaq və yaradıcı yanaşmalarını nümayiş etdirəcəklər.

Məlumat verildi ki, bu Mərkəzin məqsədi şagirdlərin potensialını və maraqlarını cəmiyyətə xidmət işinə yönəltmək, onları öyrənməyə həvəsləndirməkdir. STEAM tədris üsulu müasir dövrdə ölkənin sosial-iqtisadi inkişafında çox böyük əhəmiyyətə malikdir. Belə ki, uşaqlar bu metod vasitəsilə elmin digər sahələri ilə yanaşı, beyinlərinin məhsulunu ortaya qoya biləcək, gələcəyin mütəxəssisləri kimi yetişəcək və ölkənin inkişafına töhfələrini verəcəklər.

Bu Mərkəzin yaradılması dövlətimiz tərəfindən ölkəmizdə elm və təhsil sahəsində yeniliklərin tətbiqinə, təhsilin müasir tələblər səviyyəsində inkişaf etdirilməsinə, gənc nəslin yeni ideyalarının reallaşdırılmasına göstərilən diqqətin və verilən əhəmiyyətin əyani təzahürüdür.

**AZƏRTAC**

## Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ordubad rayon sakinləri ilə görüşüb

Dekabrın 30-da Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Ordubad rayonunda olub, sakinlərlə görüşüb.

Səlahiyyətli nümayəndə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin salamlarını rayon sakinlərinə çatdırdı. Bildirildi ki, bugünkü görüşdə sakinlərin problemlərini, üzləşdikləri çətinlikləri dinləyəcəyik.

Görüşdə 44 rayon sakininin şikayəti dinlənildi, 54 sakinin yazılı şikayəti isə baxılması üçün götürüldü.

Görüşdə bildirildi ki, problemlər qısa müddətdə aid dövlət qurumları ilə birlikdə araşdırılıb həll olunacaq.

Görüşdən sonra Ordubad şəhərindəki Şəhidlər xiyabanı ziyarət edildi.

## Naxçıvanda Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı böyük təntənə ilə qeyd olunub

### *Dövlət və hökumət nümayəndələri sakinlərlə görüşüb*



2023-cü ilin gəlişi minlərlə muxtar respublika sakininin böyük coşğusu ilə qeyd edilib.

Dekabrın 31-də dövlət və hökumət nümayəndələri bayram şənliyinə gəlib, sakinlərlə görüşüb, səmimi təbriklərini çatdırıblar.

Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına televiziya vasitəsilə təbriki mərkəzi meydanda quraşdırılan monitor vasitəsilə yayımlanıb. Dövlət və hökumət nümayəndələri sakinlərlə birlikdə ölkə başçısının xalqa müraciətini izləyib.

Gecə saatlarında Naxçıvan şəhərində möhtəşəm bayram atəşfəşanlığı olub, yeni il xoş ovqat və böyük təntənə ilə qarşılanıb.

Gecənin sonunda jurnalistlərə qısa müsahibə verən səlahiyyətli nümayəndə Fuad Nəcəfli Prezident İlham Əliyevin Azərbaycan xalqına müraciətində 2023-cü il üçün bütün planları açıqladığını diqqətə çatdıraraq gələcək fəaliyyətin ölkə başçısının təyin etdiyi istiqamətlər üzrə davam etdiriləcəyini bildirib.

## Naxçıvan şəhərində bayram şənliyi keçirilib

### *Dövlət və hökumət nümayəndələri şənlikdə iştirak edib*



Yanvarın 1-də Naxçıvan şəhərinin Heydər Əliyev prospektində təşkil olunan bayram şənliyində xoş əhvali-ruhiyyəli şən mahnılar səsləndirilib, rəqs nümunələri təqdim olunub.

Bayram şənliyində muxtar respublikada fəaliyyət göstərən istehsal və xidmət müəssisələri, eləcə də ailə təsərrüfatları tərəfindən əhaliyə ictimai iaşə xidməti göstərilib.

Naxçıvan şəhərində bayram şənliyi və ictimai iaşə xidməti gün ərzində davam edib.

**"Şərq qapısı"**

## Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində vətəndaş qəbulu keçirilib, onların problemlərinin həlli üçün tapşırıqlar verilib



Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri Süleyman Neymətov tərəfindən qəbula gələn vətəndaşların problemlərinin həlli üçün baş idarə, idarə və şöbə rəislərinə müvafiq tapşırıqlar verilib.

Bildirilib ki, bütün müraciətlər diqqətlə yoxlanılır, uçot-qeydiyyatı aparılmaqla nəzarətə götürülür. Qəbula gələn 159 vətəndaşın problemlərinin həlli üçün baş idarə, idarə və şöbə rəislərinə müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, müraciətlərin əksəriyyəti yerində həllini tapıb. Elə müraciətlər var ki, araşdırma tələb edir. Həmin araşdırmalar çərçivəsində müraciətlərin mahiyyətinə uyğun və nəticəsindən asılı olaraq müvafiq qərarlar qəbul olunacaq.

Vətəndaşların qəbulu prosesi davamlı şəkildə həyata keçiriləcək.

## Muxtar respublikanın ölkəmizdə aparılan yenidənqurma işlərinə, iqtisadi siyasətə qoşulması istiqamətində müzakirələr aparılacaq

*Yanvar ayında keçiriləcək görüşün məqsədi Naxçıvan Muxtar Respublikasının potensialından tam olaraq istifadə etmək, mövcud iqtisadiyyatı daha da gücləndirmək, şəffaf, səmərəli iqtisadi sahənin formalaşmasını təmin etmək və bu iqtisadiyyatı ən yüksək səviyyəyə çatdırmaqdır. Bu sözləri jurnalistlərə müsahibəsində Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev vurğulayıb. Nazir deyib:*



Ölkə Prezidenti cənab İlham Əliyevin qarşıya qoyduğu tapşırıqlar və göstərişlər əsasında muxtar respublikada sahibkarlıq günügündən inkişaf edir. Bunun da bariz nümunəsidir ki, ölkə Prezidentinin muxtar respublikaya təyin etdiyi səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Naxçıvanda fəaliyyət göstərən bütün sahibkarlıq subyektlərinin istehsal etdiyi məhsullarla, onların ixrac potensialı ilə tanış oldu. Ölkəmizdə fəaliyyət göstərən sahibkarlıq subyektləri ilə muxtar respublikadakı sahibkarların qarşılıqlı əlaqələrinin qurulması, fəaliyyətlərinin daha da genişləndirilməsi üçün yanvar ayında geniş bir görüş planlaşdırılır. Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarovun da dediyi kimi, yanvar ayında muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektləri, həmçinin burada işləmək imkanı olan, işləmək istəyən sahibkarlıq subyektlərinin də iştirakı ilə geniş müzakirələr olacaqdır. Bu günə qədər görülən işlər, həmçinin qarşıda duran planlar, görüləcək işlər, muxtar respublikanın ölkəmizdə aparılan yenidənqurma işlərinə, iqtisadi siyasətə qoşulması istiqamətində müzakirələr aparılacaqdır. Artıq Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən bu istiqamətdə hazırlıqlara başlanılıb. Muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektləri məlumatlandırılıb. Onlar da öz fəaliyyətlərini günün tələbləri şəklində qurmaq istiqamətində işlərini daha da sürətləndiriblər və gələcəklə bağlı planlarını, təkliflərini hazırlayıblar. Ölkə bazarlarında daha da inkişaf etmək, geniş bir bazar payı götürmək üçün onlar da yeni layihələrlə çıxış etməyə hazırdırlar. Həmçinin muxtar respublikamıza kənar investisiyaların cəlb edilməsi, ölkəmizin digər bölgələrində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin muxtar respublikada pay alması üçün də geniş imkanlar vardır. Bunun üçün muxtar respublika tam olaraq hər şeyə hazırdır. Sahibkarlıq subyektləri ilə tanışlıq keçiriləcəkdir ki, orada olan mövcud potensial da görünsün və həmin potensialın artırılması istiqamətində dövlət tərəfindən hansı dəstəyin veriləcəyi ilə əlaqədar işlər aparılsın. Bu günə qədər muxtar respublikada sahibkarlara həm güzəştli kreditlərin verilməsi, həm də gətirilən avadanlıqların gömrük rüsumlarından, əlavə dəyər vergisindən azad olunması istiqamətində təkliflərin verilməsi üçün artıq sahibkarların müraciəti əsasında bir sıra işlər görülmüşdür ki, bunlar da sahibkarların əlavə investisiyalara cəlb edilməsinə, mövcud investisiyaların yeni layihələrə yönəldilməsinə geniş imkanlar açmışdır. Gələcəkdə də bu işlərin hamısı davam etdiriləcəkdir. Əmin edirik ki, ölkədə iqtisadiyyatın inkişaf etməsində, ölkə iqtisadiyyatında Naxçıvan Muxtar Respublikasının payı günü-gündən artacaqdır. Yanvar ayındakı görüşün də ən başlıca məqsədi budur. Muxtar respublikada yeni analoji vəziyyətin, canlanmanın bütün sahələrdə olduğu kimi, iqtisadiyyat sahəsində də özünü göstərdiyini deyən iqtisadiyyat naziri bildirib ki, bu zəruri nüans layihələrin hazırlanaraq sahibkarlara təqdim olunması zamanı nazirlik tərəfindən nəzərə alınır: – Sahibkarların öz layihələrinin də onların müraciəti əsasında təhlilinin həyata keçirilərək qurula bilməsi, bunun iqtisadi cəhətdən nə dərəcədə səmərəli olması ilə bağlı sahibkarlara məlumat verilir. Demək olar ki, ilin bütün dövrlərində sahibkarların müraciəti əsasında bu işlər aparılıb və son bir ay ərzində bu proses daha da aktiv şəkildə həyata keçirilir. Çünki əvvəldə də qeyd etdiyim kimi, kənar investisiyaların cəlb olunması, əlverişli biznes mühitinin yaradılması sahibkarların bu sahəyə marağını daha da artırmışdır. Bu isə, öz növbəsində, iqtisadiyyatın daha da canlanmasına gətirib çıxaracaq ki, muxtar respublika iqtisadiyyatı ölkə iqtisadiyyatında artıq önəmli bir pay kəsb edəcək. Bunun da təmin olunması istiqamətində yalnız İqtisadiyyat Nazirliyi deyil, iqtisadi sahədə fəaliyyət göstərən bütün qurumlar əlaqəli şəkildə işləyəcək, sahibkarların formalaşmasına nail olunacaq.

## 252 milyon 442 min 500 manat məbləğində kreditlər verilib

Dövlət başçısı İlham Əliyevin uğurlu daxili siyasəti nəticəsində ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da iqtisadiyyat hərtərəfli inkişaf mərhələsinə qədəm qoyub, bu inkişafda özəl sektorun da payı əhəmiyyətli dərəcədə artırılıb. Təbii ki, sahibkarlığın inkişafında, məhsul istehsalının stimullaşdırılmasında əsas məsələlərdən biri də sərfəli kredit imkanlarının yaradılmasıdır. Dövlətin bu yöndə atdığı addımlardan biri kimi ayrılan maliyyə vəsaitləri sosial-iqtisadi inkişafın prioritet istiqamətləri üzrə investisiya layihələrinin maliyyələşdirilməsinə yol açıb.

2022-ci ildə də təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılıb. Statistik məlumatlara əsasən ötən ilin yanvar-noyabr aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 252 milyon 442 min 500 manat məbləğində kreditlər verilib ki, bu da bir il öncəki göstəricidən 21,5 faiz çoxdur. Verilmiş kreditlərin 20 milyon 279 min 400 manatı və yaxud 8 faizi qısamüddətli, 232 milyon 163 min 100 manatı və yaxud 92 faizi uzunmüddətli kreditlər olub.

**Xəbərlər şöbəsi**

# Yeni il qədim diyarımızda böyük ruh yüksəkliyi, gələcəyə inam, əminlik hissləri ilə qarşılandı

*Bir-birindən maraqlı hadisələrin, qaynar proseslərin, dünyada, eləcə də ölkəmizdə baş verən mürəkkəb ictimai məsələlərlə sona yetişən bir ilin – 2022-ci ilin sonuna gəldik. Yeni ilin gəlişini bütün dünya böyük təmtəraqla qarşılayır, bu adət uzun illərdir ki, bir çox ölkələrdə bayram ovqatlı, o cümlədən də Vətənimizdə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi qeyd olunur. Xalqımız bu bayramları böyük sevinclə qeyd edir.*

Bayram günlərində Naxçıvan şəhərində muxtar respublika sakinləri ilə söhbət etdik, onlar Yeni illə bağlı xoş arzularını, təbriklərini bizimlə bölüşdü...

İlk həmsöhbətimiz Naxçıvan Dövlət Universitetinin müəllimi, muxtar respublika mətbuatında fəal jurnalist kimi çıxış edən ***Səadət Əliyeva*** oldu. “Həmrəylik Günü Azərbaycançılıq



ideologiyasına sadiqliyimizin ən ali təzahürüdür”, – deyən müsahibimiz qəzetimiz vasitəsilə öz bayram təbrikini muxtar respublika ictimaiyyətinə çatdırdı:

– 31 Dekabr Azərbaycan xalqının tarixində ən yaddaqalan, ən şərəfli günlərdən biri – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Xalqımızın birlik şüarının simvolik günü olan bu bayramın qeyd olunması isə Azərbaycançılıq ideologiyasına nə qədər bağlı olduğumuzun ən ümdə təzahürüdür. Bu ideya ətrafında sıx birləşən hər bir soydaşımızı harada yaşamasından asılı olmayaraq, bir amal, bir məqsəd birləşdirir – HƏMRƏYLİK və BİRLİK!!! Bu tarixi günün təməli isə Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndərin təşəbbüsü ilə 1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisində Milli Həmrəylik və Birlik Gününün təsis olunması haqqında qərar verildikdən sonra bu tarix hər bir azərbaycanlının milli qürur mənbəyinə və sevinclə qeyd etdikləri bayrama çevrilib.

Müsahibimiz tariximizin səhifələrinə qeyrət simvolu kimi həkk olunmuş böyük və şanlı Vətən müharibəsində göstərdiyimiz şücaətə, xalqımızın birlik və bərabərlik mövqeyinə də toxundu: – Azərbaycan xalqı tarixin ən ağır sınaqlarında birləşməyi, ən çətin məqamlarda bir-birinə dəstək olmağı bacarır. Bu bacarıq, bu qabiliyyət öz təsdiqini məhz 2020-ci ilin Vətən savaşında, haqlı mübarizəmizdə özünü bariz şəkildə göstərdi. Gücümüzü bilən dövlətlər, birgəliyimizdən doğan həmrəyliyimizə bir daha əmin oldular. Bütün dünyaya sübut etdik ki, biz Azərbaycan xalqı olaraq Ümummilli Lider ideyaları ətrafında sıx birləşən və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin qətiyyətli siyasətinə inanan və onun əmri ilə torpaqlarımızın müdafiəsi uğrunda ölümə gedən bir xalqıq. Çox qürurluyuq, iki ildən artıqdır ki, işğaldan azad edilən torpaqlarımızda tarixi Zəfərimizi qeyd edirik, bayramlarımızda sevinclərimizi bölüşürük. Artıq mənfur düşmənin tapdağı altında inləyən torpaqlarımız da sanki dirçələrək birliyimizdən doğan qələbəni bayram edir. Bundan böyük şərəf, bundan böyük fəxr ola bilərmi?! Mənəvi birliyimizin rəmzinə çevrilmiş bu bayram münasibətilə damarında azərbaycanlı qanı daşıyan hər kəsi təbrik edirəm. Qoy ən çətin məqamlarda birləşən qollarımız heç zaman ayrılmasın! Birlik və bərabərlik ideyamız həyat amalımız olsun! Arzum budur ki, yeni arzu və niyyətlərlə yola çıxdığımız 2023-cü il arzularımızın ünvanı olsun! Qoy bu yeni il hər kəsə cansağlığı, hüzur və xoşbəxtlik gətirsin.

***Sərxan Rüstəmov*** öz ailəsi ilə birlikdə yeni ili Naxçıvan şəhərinin mərkəzində qurulan, bayramın rəmzi sayılan yolkanın ətrafında, şən musiqi sədaları altında qeyd edir. Arxada buraxdığımız 2022-ci illə bağlı fikirlərini bölüşərək deyir: – Artıq bir ilimiz də ölkəmizin, xalqımızın inkişaf, yüksəliş dövrü kimi tarixə düşdü. Ölkə başçısı Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə xalqa müraciətində də bu barədə dolğun məlumat verdi. Bəli, “Şuşa ili” olan 2022-ci ildə həm dövlətimiz, həm də xalqımız birlik göstərərək böyük uğurlara nail oldu. Qədim mədəniyyət mərkəzimiz Şuşada bir sıra beynəlxalq tədbirlər keçirildi, azadlığına qovuşan torpaqlarımızda genişhəcmli tikinti-quruculuq işləri reallaşdırıldı, Böyük qayıdış proseslərinə start



verildi, Zəngilanın Ağalı kəndinin bir qrup sakininin torpaq həsrətinə son qoyuldu. Bundan başqa, ordumuz daha da qüdrətləndi, yeni birliklər yaradıldı, qəhrəman əsgər və zabitlərimiz düşmənin növbəti təxribatlarına qarşı “Qisas”, “Qətiyyətli cavab” hərbi əməliyyatları keçirərək bədxahlara layiqli cavab verdi, insanlarımız həmrəylik, birlik göstərərək Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərdə faydalı qazıntı yataqlarının qanunsuz istismarına qarşı etiraz aksiyasına başladılar.

Müsahibimiz qeyd edir ki, yola saldığımız il doğma, qədim Naxçıvanımız üçün də bir sıra əhəmiyyətli hadisələrlə yadda qaldı. Xüsusilə də ilin sonlarına yaxın ölkə Prezidentinin



atdığı mütərəqqi addım hər birimiz tərəfindən böyük rəğbət və razılıq hissi ilə qarşılandı. Bildiyimiz kimi, ötən il dekabrın 22-də ölkə başçısı İlham Əliyevin Fərmanı ilə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi təsis olundu və Fuad Nəcəfli həmin məsul vəzifəyə təyin edildi. Həm bir vətəndaş, həm də dövlət qulluqçusu kimi idarəçilik sistemində həyata keçirilən islahatları diqqətlə izləyirəm. Səlahiyyətli nümayəndəni təyinatla bağlı qəbul edən ölkə Prezidenti Naxçıvanda görülən işlərdən və qarşıda duran vəzifələrdən söhbət açdı. Tapşırıq verdi ki, səlahiyyətli nümayəndə insanların qayğısına qalınması, korrupsiya, rüşvətxorluqla mübarizə, şəffaflıq, düzgün kadr siyasətinin həyata keçirilməsi, mərkəzi icra orqanları ilə sıx təmasda fəaliyyətlə bağlı bütün səylərini göstərsin. Artıq qısa zaman ötməsinə baxmayaraq, insanlara qarşı sadə, səmimi rəftar, vətəndaşların problemləri ilə yaxından maraqlanma sakinlər tərəfindən yüksək qiymətləndirilir. Prezident təmsilçisinin naxçıvanlılara xitabən “Arxayın olun, hər şey yaxşı olacaq” deməsi hər kəsdə böyük ruh yüksəkliyi, gələcəyə inam, əminlik hissləri yaradır.

Sərxan Rüstəmov bildirir ki, sakinlərin Yeni il bayramını gözəl, maraqlı qeyd etməsi üçün şəhərimizdə lazımi şərait yaradılıb, teatrlarımızın kollektivləri uşaqların əylənməsi üçün bir-birindən rəngarəng səhnəciklər hazırlayıblar, müxtəlif iaşə xidmətləri insanların ixtiyarındadır. O da ailəsi ilə birlikdə bu yaradılan imkanlardan lazımınca istifadə etməyə çalışır. Hər bir həmvətəninə “Heydər Əliyev İli” kimi tarixə düşəcək 2023-cü ildə uğurlar arzulayır, ölkəmizin daha da qüdrətlənməsini, xalqımızın rifahının yaxşılaşmasını diləyir.

Digər müsahibimiz Naxçıvan şəhər sakini ***Əli Əliyev*** bayramla bağlı öz təəssüratını bizimlə bölüşərək dedi: – Bütün Azərbaycan xalqını Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni ilin gəlişi münasibətilə təbrik edirəm. Arzu edirəm ki, bu il hərkəs üçün uğurlu olsun, ölkəmiz, müzəffər Ordumuz daim böyük zəfərlərə, uğurlara imza atsın. Qeyd edim ki, hər il olduğu kimi, bu il də muxtar respublikamızda gözəl bayram tədbiri keçirilir. Yeni il münasibətilə şəhərimizin mərkəzində qurulan iaşə obyektləri insanların rahatlığına xidmət edir, istədiyimiz hər şeyi burada sərfəli qiymətə ala bilirik. Bu gözəl məkanda səslənən musiqilər, hazırlanan tamaşalar hər kəsin zövqünü oxşayır. Hər zaman olduğu kimi, bu il də xalqımız həmrəy olaraq uğurlara imza atdı. Arzum budur ki, xalqımız hər zaman sülh və əmin-amanlıq içərisində yaşasın. Onu da qeyd edim ki, ötən müddət ərzində muxtar respublikamızda aparılan islahatlar hər şeyin yaxşıya doğru gedəcəyinə inamımızı daha da artırır. İnanırıq ki, bundan sonra muxtar diyarımızda hər şey daha yaxşı olacaq. Mən bir daha doğma həmvətənlərimi təbrik edirəm.

Yeni il tədbirində iştirak edən Şahbuz rayon sakini ***Nağı Qurbanlı*** bayram sevincini belə ifadə etdi: – Əvvəla, bütün həmvətənlərimi Yeni il və Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə təbrik edirəm. İnanırıq ki, 2023-cü il ölkəmizə, dünyaya xoşbəxtlik, sağlamlıq və səadət gətirəcək. Ötən illəri zəfərimizin qüruru, sevinci ilə yola saldıq. Qoy bundan sonrakı illərdə də xalqımızın zəfərləri, uğurları bol olsun. İnanırıq ki, muxtar respublikamız yeni ildə öz inkişaf yolunu davam etdirəcək. Arzu edirik ki, cənab Prezidentimizin göstərişi ilə həyata keçirilən yeniliklər muxtar diyarımıza yeni nəfəs gətirsin, xoşbəxtlik, firavanlıq xalqımızın nəsibi olsun. Bir daha bütün Azərbaycan xalqını, doğmalarımızı, əzizlərimizi təbrik edirəm.

Ordubad rayon sakini ***Nazilə Yusifova*** da ailəsi ilə birgə muxtar respublikamızın paytaxtında şəhər gəzintisinə çıxmışdı. Onun yeni il təəssüratları: – Bu yeni ili də böyük sevinc və coşqu ilə qeyd etdik. Deyirlər ki, ili necə qarşılasan elə də yola salarsan. 2023-cü ili də yeni ümidlərlə – sağlamlıq, yeni uğurlar, xoşbəxtlik arzusuyla qarşıladıq. Bu yeni ildə də adət və ənənələrimizi qoruyub saxladıq.



Bayramı bütün ailə bir süfrə arxasında, yaxın və doğma insanların əhatəsində keçirdik. Süfrəmizi müxtəlif cür təamlarla bəzədik.

Yeni ilin ilk günü isə günəşli havada ailəlikcə bayram gəzintisinə çıxdıq. Müxtəlif xidmət servislərinin təkliflərindən yararlandıq, şən mahnılar, rəqs nümunələri zövqümüzü oxşadı.

Naxçıvan idarəçiliyində baş verən dəyişiklik insanların əhvali-ruhiyyəsində hiss edilirdi. Hamı şən, gülərüz və gələcəyə inamlı idi. Prezident cənab İlham Əliyevin Azərbaycan xalqına müraciətini izlədik və 2023-cü ildə Naxçıvan üçün bütün planların yerinə yetiriləcəyinə əminik. Bu il hər kəsə düşərli olsun.

*İnsanları bir araya gətirən, onlara sevinc, xoşbəxtlik bəxş edən bayramlar lap qədimlərdən xalqımız arasında sevilib. Vətənimizin qeyrətli, qüdrətli insanları birlik, birgəlik, həmrəylik nümayiş etdirərək elimizin təntənəsinə çevrilən zəngin adətlərini, bayramlarını dünyaya tanıdıb. Elə biz də müsahiblərimizin təbriklərinə qoşulur, bütün Azərbaycan xalqını, amalı bir, məramı bir həmvətənlərimizi hər zaman qalib, müzəffər görməyi arzu edirik, Yeni iliniz düşərli olsun, – deyirik.*

**Nail ƏSGƏROV**
**Güntac ŞAHMƏMMƏDLİ**
**Məcid RƏŞADƏTOĞLU**
**Bülbül QULİYEVA**
**Aysel YUSİFZADƏ**

## Yeni nəşrlər ictimaiyyətə tanıdılıb

*Naxçıvan Dövlət Universitetində Bələdiyyə və turizm kafedrasının dosenti Əli Cabbarovun “Naxçıvan Muxtar Respublikasının turizm marşrutları” və “Bu yol Şuşa yoludur” adlı kitablarının təqdimatı keçirilib.*

Tədbirdə çıxış edən universitetin rektoru, dosent Elbrus İsayev bildirib ki, Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf problemlərindən bəhs edən ilk nəşrlərdən hesab olunan monoqrafiyalar ölkəmizin, eləcə də muxtar respublikanın iqtisadi və sosial-mədəni həyatda əldə etdiyi inkişafın turizm marşrutlarının yaradılmasına olan təsirindən bəhs edir. Qeyd olunub ki, bu inkişaf turizm sahəsində mühüm nəticələr əldə olunmasına imkan yaradıb. Muxtar respublikanın sahib olduğu təbii, tarixi-mədəni və antropogen mənşəli turizm ehtiyatları, onlardan səmərəli istifadə üzrə dövlət səviyyəsində qəbul olunmuş mühüm qərarlar mövcud və potensial turizm imkanlarından xəbər verir.

Bələdiyyə və turizm kafedrasının müdiri Flora Kərimova ölkəmizin qədim diyarı Naxçıvanda turizmin inkişafının və bölgənin coğ-



rafi cəhətdən daha yaxşı tanınmasının onun sahib olduğu rekreasiya və tanışlıq obyektlərinin cəlbetmə gücünün, eləcə də funksional və estetik potensialının qiymətləndirilməsi ilə bağlı olduğunu bildirib. Qeyd olunub ki, bu məqsədlə təqdim olunan xidmətlərin turizm marşrutu üzrə komplektləşdirilməsi zəruri tələblərdən hesab edilir. Onun sözlərinə görə, müəllifin kitabları Azərbaycanın müstəqillik simvoluna çevrilən Şuşa yolunun əhəmiyyəti və bu yolda ən mühüm strateji mövqe hesab olunan Naxçıvan turizm marşrutlarının imkanlarını müxtəlif aspektlərdən oxucuların diqqətinə çatdırır.

Görkəmli alim Nazim Bababəylinin xatirəsinə həsr olunmuş “Naxçıvan Muxtar Respublikasının turizm marşrutları” adlı monoqrafiyanın ali məqsədi barədə danışan kafedranın müəllimi Nigar Bababəyli bildirib ki, kitabın işlənməsi zamanı müəllif öz dəyərli fikirlərini onunla paylaşmış həmkarlarının, habelə muxtar respublikaya səyahətə gəlmiş əcnəbi turistlərin təəssüratlarından geniş istifadə edib. Bu səbəbdən kitab dərin təcrübə və maraqlı məlumatların təsviri ilə zəngindir.

“Bu yol Şuşa yoludur” əsərinin yaranma tarixinə toxunan “Naxçıvan Travel” Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Natiq Paşayev qeyd edib ki, “Şuşa ili”nə töhfə olaraq hazırlanmış kitabda müəllifin 2004-cü ildən başlayaraq erməni faşizminin və onu bəsləyən qüvvələrin ifşası, həmçinin Qarabağ, Şuşa sevgisi motivləri üzərində hazırlanmış və ölkənin nüfuzlu nəşr orqanlarında dərc olunmuş publisistik məqalələri toplanılıb.

Daha sonra tədbir iştirakçılarının və müəllifin ürək sözləri dinlənilib, müəllifə yeni elmi axtarışlarında uğurlar arzulanıb.

***Naxçıvan Dövlət Universitetinin televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

### *İtmişdir*

Naxçıvan şəhəri, Tumbul kəndində yerləşən “Gəmiqaya Şirkəti” MMC-yə məxsus torpaq sahəsinin 09.03.2016-cı il tarixli A-013426 inventar nömrəli planı və ölçüsü və 10.03.2016-cı il tarixli MH-0047251 seriya nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Tumbul kəndində yerləşən “Gəmiqaya Şirkəti” MMC-yə məxsus torpaq sahəsinin 09.03.2016-cı il tarixli A-013427 inventar nömrəli planı və ölçüsü və 10.03.2016-cı il tarixli MH-0047252 seriya nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraçuq kəndində yaşamış Əliyev Hüseyn Sucaxan oğlunun adına olan 296A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayon, Qoşadizə məhəlləsi 15/20-də yaşayan Həsənova Tamara Sabir qızının adına olan 2367 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraçuq kəndində yaşamış Həsənova Əzizə Pənah qızının adına olan JN-928A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 1